Əməkdar müəllim, filologiya elmləri doktoru, professor, dilçi alim Akif İmanlı ilə tanışlığımız müddətinə nəzər saldıqda aşkar etdim ki, real rəqəm hələ heç 3 ili də əhatə etmir. Əgər nəzərə alsaq ki, mənim də yaşım az deyil, onda etiraf etmək lazım gəlir ki, bu insanı tanımaqda, onunla ünsiyyət qurmaqda bir xeyli vaxt itkisinə məruz qalmışam. Yəqin ki, Akif müəllim də mənə və eynən taleyin hökmü ilə sonradan-sonraya rastlaşdığı yoldaşlarımıza olan münasibətində bu cür fikir yürüdə bilər. Əlbəttə, gecikmiş tanışlığın özünü də bir qənimət hesab etmək olar, təki münasibətlərdə bir səmimiyyət, istiqanlılıq, sözün əsl mənasında böyüklük-kiçiklik olsun. "Səmimiyyət", "istiqanlılıq" sözlərini elə-belə yazmadım. Mənə elə gəlir ki, A.İmanlının insanlara münasibətində - kimliyindən asılı olmayaraq - bu keyfiyyətlər üstünlük təşkil edir.



**Aqşin DADAŞZADƏ**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*



# Ömrün müdriklik çağı

**Akif İmanlı ilə tanışlığımız müddətinə nəzər saldıqda aşkar etdim ki, real rəqəm hələ heç 3 ili də əhatə etmir. Əgər nəzərə alsaq ki, mənim də yaşım az deyil, onda etiraf etmək lazım gəlir ki, bu insanı tanımaqda, onunla ünsiyyət qurmaqda bir xeyli vaxt itkisinə məruz qalmışam.**

Akif müəllim zəhmətkeş bir tədqiqatçı, onillər boyu biliyini, təcrübəsini saysız-hesabsız şagirdləri, tələbələri ilə bölüşən bir pedaqoqdur. İndi, yeni ömrün 75 illik zirvəsindən geriyə baxdıqda, belə qənaətə gəlmək olar ki, onun həyatına məna verən yalnız elmi əsərləri deyil, həm də zəngin pedaqoji fəaliyyətidir. Bununla yanaşı, yubilyar ədəbiyyata, müxtəlif ədiblərin həyat və yaradıcılığına, ümumən ədəbi prosesə də hər zaman maraq göstərmişdir. Bu maraq onun özünün də bəzən əlinə qələm alıb, məsələn, hekayələr yazmağa ruhlandırmışdır. Qeyd etmək gərəkdir ki, xarakterinə məxsus səmimilik onun bədii əsərlərində də hiss edilir. Hekayələri lakonik, sadə dildə yazılsa da, nəsihətamiz, tərbiyəedici bir mahiyyət daşıyır, insanlar arasında münasibətlərin sağlam dayağa əsaslanması zəruriyyəti fikrini ön plana çəkir. Müəllif oxucularda müvafiq ideyanı formalaşdırmaq, nəcib hissləri oyatmaqdan ötrü, yeri gəldikcə, xalq hikməti ilə bağlı olan ifadələrdən də istifadə edir. Akif müəllim, ümumiyyətlə, ədəbiyyatın funksiyasını geniş mənada təsəvvür edir. Təsadüfi deyil ki, onun "Sevdiyim əsər" layihəsi çərçivəsində "Kaspi" qəzetinin əməkdaşına verdiyi müsahibədə ("Kaspi", 16 fevral 2019) belə bir diqqətəlayiq fikrə rast gəlirik: "Nə qədər ki, insanların xasiyyəti, hərəkətləri, əməlləri deformasiyaya uğrayıb və heyvanlar bir neçə cəhətdən öz davranışları ilə insandan üstündür, ədiblər insanları öz əsərləri ilə tərbiyə etməkdən yorulmayacaqlar". Elə həmin müsahibədə onun son zamanlarda cəmiyyətin ciddi ədəbiyyata maraq göstərməməsi, ümumiyyətlə bədii mütaliə səviyyəsinin bir xeyli dərəcədə aşağı düşməsi gerçəkliyindən bəhs etməsi Akif müəllimin bu ağrılı problemə necə həssaslıqla yanaşmasından xəbər verir. Etiraf edək ki, günümüzün reallıqlarından biri də mütaliə bəsitliyi, əsl sənət incilərinin ərşə çəkilməsi ilə bağlıdır.

Lakin istənilən halda, həmkarımız, yaxşı yoldaş və ağsaqqalımız Akif İmanlının həyatının böyük həyat təcrübəsi ilə müşayiət olunan indiki mərhələsində bədbin fikirlərə qapılmaq istəməzdim. Ona görə də bu əziz gündə yubilyara ilk növbədə cansağlığı, onun gözəl ailəsində əmin-amanlıq, qarşılıqlı hörmət əsasında qurulan münasibətlərin davamını, bir də ki, qələminin daim işlək vəziyyətdə olmasını arzu etmək istərdim.

75 yaşınız mübarək olsun, Akif müəllim!